AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**Sumqayıt Şəhər Təhsil Şöbəsi**

Əmr

№ 948-2

Sumqayıt "22" oktyabr 2019-cu il

**Məktəblilərin fənn olimpiadalarının təşkili və keçirilməsi haqqında**

2019-2020-ci dərs ili üçün Respublika Fənn olimpiadalarına hazırlıq, eləcə də Olimpiadaların şəhər turunun təşkili məqsədilə

**əmr edirəm:**

1. Şəhərin bütün ümumtəhsil müəssisələrində dərs ilinin noyabr ayı ərzində fənn olimpiadalarının məktəb seçim turu keçirilsin.
2. Olimpiadaların məktəb turunda obyektiv və şəffaf seçim aparılması məktəb rəhbərlərinə həvalə edilsin.
3. Məktəb turunda seçilmiş şagirdlərlə ən yaxşı müəllimlər tərəfindən Olimpiadalara hazırlıq məşğələləri təşkil olunsun, bunun üçün Olimpiadaya Hazırlıq Mərkəzlərinin imkanlarından istifadə edilsin.
4. Olimpiadalara hazırlıq məsələlərini nəzarətdə saxlamaq, habelə şəhər turunun təşkili məqsədilə Təhsil Şöbəsinin əməkdaşları, ümumtəhsil məktəblərinin qabaqcıl müəllimlərindən ibarət aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:
   - Arzu Alızadə - Təhsil Şöbəsinin müdiri, sədr;
   - Gülbahar Haqverdiyeva - metodkabinetin direktoru, üzv;
   - Ramin Abasov- Təhsil Şöbəsinin aparıcı məsləhətçisi, üzv;
   - Bəxtiyar Bayramov – Təbiət elmləri təmayüllü gimnaziyanın fizika müəllimi, üzv;
   - Xalidə Nəzərova – Texniki və təbiət elmləri liseyinin biologiya müəllimi, üzv.
5. Yerli təşkilat komitəsi:

5.1. şəhərin ümumtəhsil məktəblərində istedadlı şagirdlərin aşkara çıxarılması və onlarla fənn olimpiadalarına hazırlıq işlərinin aparılmasını, şəhər səviyyəsində müxtəlif müsabiqələr, test yoxlamaları və digər formalarda bilik yarışları keçirilməsini təmin etsin;

5.2. olimpiadanın keçirilməsi ilə bağlı Respublika Təşkilat Komitəsindən verilən məlumatların vaxtında məktəblərə çatdırılmasını təmin etsin;

5.3. şəhər turunun iştirakçılarının siyahısının müəyyən edilməsini və onların onlayn qeydiyyatını təmin etsin;

5.4. olimpiadaların şəhər mərhələsinin keçirilməsi məqsədilə müsabiqə günü iştirakçılar üçün sual kitabçalarını və cavab kartlarını hazır etsin;

5.5. şəhər mərhələsinin imtahan materiallarını vaxtında Respublika Təşkilat Komitəsinə çatdırsın;

5.6. şəhər turunun yekunları ilə bağlı apelyasiya müraciətlərinin qəbul edilərək, ərizələrin Respublika Təşkilat Komitəsinə çatdırılmasını təmin etsin;

5.7. şəhər mərhələsinin qaliblərinin rəğbətləndirilməsi üçün müvafiq tədbirləri həyata keçirsin.

6. Fənn Olimpiadalarına hazırlıq və şəhər turunun keçirilməsinə nəzarət aparıcı məsləhətçi R.Abasova həvalə edilsin.

7. Əmrin çoxaldılıb təhsil müəssisələrinə göndərilməsi, şöbənin internet səhifəsində yerləşdirilməsi və "Sumqayıt təhsili-sabah" qəzetində dərc olunması məsləhətçi F.Alimovaya və metodist K.Namazova tapşırılsın.

8. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

***Əsas: Azərbaycan Respublikası Təhsil nazirinin 12 dekabr 2014-cü il tarixli, 1256 nömrəli əmri ilə təsdiq edilmiş "Məktəblilərin fənn olimpiadalarının təşkili və keçirilməsi Qaydaları"***

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ • SUMQAYIT ŞƏHƏR TƏHSİL ŞÖBƏSİ •

**Müdir** **Arzu Alızadə**